# 20 Yanvar Ümumxalq Hüzn Günü qeyd olundu

## Qəhrəmanlıq salnaməsi—20 Yanvar





Azərbaycan xalqının milli azadlıq mübarizəsi tarixində özünəməxsus yer tutan 1990-cı ilin 20 Yanvar günü müstəqillik və azadlıq uğrunda güclü imperiyaya qarşı müqavimət göstərərkən həlak olmuş, itkin düşmüş insanların xatirəsi günü kimi hər il dövlət səviyyəsində qeyd olunur.

Qəbələ Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə təsdiq olunmuş "20 Yanvar Ümumxalq Hüzn Gününün 25-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı"na uyğun olaraq yaşayış məntəqələrində silsilə xatirə tədbirləri keçirilmişdir.

Rayonun bütün ümumtəhsil məktəblərində, mədəni-maarif müəssisələrində, idarə və təşkilatlarda təşkil olunmuş tədbirlərdə 20 yanvar qətliamı Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda qəhrəmanlıq rəmzi kimi xarakterizə olunmuşdur.

Təhsil ocaqlarında 20 Yanvar faciəsini əks etdirən stendlər, rəsm sərgiləri, seir, inşa yazı müsabiqələri, ədəbi-bədii kompozisiyalar təşkil edilmiş, şagirdlərdə vətənpərvərlik ruhunun aşılanması istiqamətində digər mövzu tədbirləri həyata keçirilmişdir. Yanvarın 19-da ilk dərslər 20 yanvar hadisələrinə və şəhidlərimizin qəhrəmanlıq mübarizəsinə həsr olunmuşdur.



20 Yanvar faciəsinin iyirmibeşinci ildönümü ilə əlaqədar həmin gün rayon ərazisində Azərbaycanın dövlət bayraqları endirilmişdir.

Ümumxalq Hüzn Günü ilə əlaqədar rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev, RİH aparatının işçiləri, bütün əmək kollektivləri və ictimaiyyət nümayəndələri şəhərdəki Şəhidlər Xiyabanına ziyarətə gəlmişlər.

Şəhidlərin ruhuna Qurani-Kərimdən surələr oxunmuşdur. Ziyarətə gələn insanlar xalqımızın azadlığı uğrunda şəhid olanların möhtəşəm abidəsi önünə gül dəstələri qoymuşlar.

Ziyarətçilər buradan rayon mədəniyyət mərkəzinə gəlmiş, mərkəzin foyesində 20 Yanvar faciəsinə həsr olunmuş ədəbibədii kompozisiyaya tamaşa etmiş, dövlət rəsm qalereyasının təşkil etdiyi sərgi ilə tanış olmuşlar. Sonda "Bakıfilm" kinostudiyasının ekranlaşdırdığı Vahid Mustafayevin "Qanlı Yanvar" filmi nümayiş etdirilmişdir. Filmin nümayişindən öncə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova iştirakçılara 20 Yanvar hadisələri və həmin hadisələrə həsr olunmuş ekran əsəri barədə məlumat vermişdir. İştirakçılar 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Qəbələlilər o mühdiş gecə canını vətən uğrunda fəda etmiş insanları heç vaxt unutmur, onların əziz xatirələrini uca tuturlar.

xxx

Günün ikinci yarısında Qəbələ şəhərinin yeni məscidində ehsan süfrəsi açılmış, şəhidlərin ruhuna Qurani-Kərimdən ayələr oxunmuşdur.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

---

## Xalqın mübarizə əzmi qırılmadı

1990-cı il 20 Yanvar faciəsi Azərbaycan tarixinə həm də milli qürur və şərəf günü kimi daxil olmuşdur. Faciə qurbanlarının xatirəsi hər il böyük ehtiramla yad edilir. O cümlədən Heydər Əliyev Mərkəzində bu tarixi hadisə ilə əlaqədar silsilə tədbirlər keçirilmiş, ekskursiyalar təşkil edilmiş, video materiallar nümayiş etdirilmişdir.

16 yanvar 2015-ci il tarixində mərkəzdə kecirilən "20 Yanvar—Milli qürur və şərəf günü" adlı tədbirdə şəhər məktəblərinin müəllim və şagird kollektivləri iştirak edirdilər.

Tədbiri giriş sözü ilə Heydər Əliyev Mərkəzinin direktor əvəzi K. Qasımova açdı. Ilk öncə bir dəqiqəlik sükutla 20 Yanvar şəhidlərinin xatirəsi yad edildi. K. Qasımova Azərbaycanın haqq səsinin heç yerdən eşidilmədiyi, o vaxtlar öz xalqının səsinə səs verən xalqımızın ümummilli lideri Heydər Əliyev olduğunu, çətin şəraitdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdiyini, Bakıda törədilmiş qanlı cinayətin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdiyini, bu barədə ifşaedici və cəsarətli bir bəyanat verdiyini qeyd etdi. Ulu öndər bu bəyanatında qırğın törədənlərin cəzalandırılmasını, faciəyə siyasi-hüquqi qiymət verilməsini tələb etmişdir. Daha sonra Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 21 noyabr 1990-cı il tarixli qərarı ilə 20 Yanvar Milli Matəm Günü elan edilmişdir.

Tarix müəllimi F. Rəşidzadə çıxış edərək qeyd etdi ki, 20 Yanvar faciəsi tariximizdə həm də müstəqilliyə, istiqlala aparan şərəfli bir yoldur. Sonralar Azərbaycan xalqının bütövlüyünün və müstəqilliyinin sarsılmazlığı bir daha təsdiq olundu. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, Azərbaycan xalqı bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan xalqı yenilməzdir, qəhrəmandır. Ümummilli lider Heydər Əliyevin sözləri ilə desək, bu faciə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçatmaq və sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə həyata keçirilmiş qanlı cinayət idi. Sovet imperiyasının bu qanlı hadisələri törətməkdə məqsədi xalqımızın mübarizə əzmini qırmaq, onun müstəqillik arzusunu içində boğmaqla 70 ildən bəri əsarət altında çırpınan başqa xalqlara ibrət dərsi vermək idi. Lakin bu arzu və istəklər onların ürəyində qaldı.

Tədbirin sonunda 20 Yanvar hadisələrinə həsr edilmiş sənədli film nümayiş etdirildi.

**Heydər Əliyev Mərkəzi.**